# Zərifə Əliyeva – alim, şəxsiyyət və ana etalonu



***Dahi alman şairi Henrix Heyne deyib ki, tarix əsasən kişilərin adını xatırlatsa da, onu qadınlar yaradırlar. Çünki həyatda uğur qazanmış hər bir kişinin arxasında məhz müdrik, qayğıkeş bir qadın dayanır. Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə Əliyeva kimi. Böyük italyan rəssamı Leonardo da Vinçi isə deyib ki, elm sərkərdə, praktika isə onun əsgəridir. Burada da akademik Zərifə xanım yada düşür. Çünki o, özünün praktik fəaliyyəti ilə elmin sərkərdəlik zirvəsini fəth edənlərdən olub. Görkəmli oftalmoloq alimin nail olduğu nəzəriyyə və təcrübə vəhdəti onun qələbəsini təmin edən başlıca amillərdəndir.***

Gələn il 100 yaşı qeyd olunacaq Zərifə Əliyeva 1923-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində dünyaya göz açıb. Həmin il ailə Bakıya köçüb. Öz dövrünün qabaqcıl düşüncəli insanlarının, cəmiyyətə təmənnasız xidmət etmiş şəxsiyyətlərin ailəsində tərbiyə alıb, böyüyb. Bu mühit onu da əsl tarixi şəxsiyyət kimi formalaşdırıb. Atası – Azərbaycanın tanınmış ictimai-siyasi və dövlət xadimi Əziz Əliyev ixtisasca həkim idi. Müxtəlif dövlət vəzifələrində, o cümlədən 1939-41-ci illərdə Azərbaycanın Xalq səhiyyəsi komissarı vəzifəsində çalışmışdır. Məhz atasının sayəsində erkən yaşlarından tibb sahəsinə könül verən Zərifə xanım İkinci dünya müharibəsi dövründə hər gün dərsdən sonra rəfiqələri ilə birgə evlərinin yaxınlığındakı hospitala gedir, həkimlərə, tibb bacılarına kömək edirdi. Elə 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olması da onun bu sənətə sevgini həyat amalına çevirdiyini göstərir. Xatırladaq ki, Zərifə xanımın böyük qardaşı Tamerlan Əliyev terapevt, bacısı Ləzifə Əliyeva həkim-oftalmoloq, kiçik qardaşı Cəmil Əliyev isə onkologiya sahəsini seçiblər və ağ xalatın işığına tapınaraq tibb sahəsində uğurlara imza atıblar.

Tələbəlik illərində Zərifə xanım və bacı-qardaşları Bakıda cəfakeş anaları Leyli xanımın himayəsi altında yaşayırdılar. Çünki ataları Əziz Əliyev artıq təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqında müstəsna təşkilatçılıq qabiliyyətinə malik dövlət xadimi, eləcə də görkəmli səhiyyə təşkilatçısı kimi tanındığından SSRİ rəhbərliyi tərəfindən müharibənin ağır illərində Dağıstan Muxtar Respublikası Mərkəzi Komitəsinin I katibi vəzifəsinə təyin edilmişdi. Leyli xanım yalnız uşaqların tətil vaxtı, bəzən də şənbə və bazar günlərində onları Mahaçqalaya – atalarının yanına aparırdı. Onunla ünsiyyətdə olub məsləhətlərini, öyüd-nəsihətlərini aldıqdan sonra yenidən Bakıya qayıdırdılar. Hərdən ataları da vaxt tapıb Bakıya gəlirdi və belə günlərdə evlərində əsl bayram əhval-ruhiyyəsi yaranırdı. Azərbaycanın görkəmli ziyalıları onların evinə toplaşırdı. Belə görüşlərdə gənc Zərifənin royalda məharətlə ifa etdiyi musiqi nümunələri hamını heyran qoyurdu.

Zərifə Əliyeva Tibb İnstitutunu bitirdikdən sonra iki il Moskvadakı Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçib. Ardınca Azərbaycan Elmi–Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayıb. 1950-ci ildə aspiranturaya daxil olaraq praktik həkim fəaliyyəti ilə yanaşı, elmi axtarışlar aparıb. Bu sahədə çalışmalarının ilk mərhələsini traxoma xəstəliyinin müalicəsinə həsr edib. Həmçinin digər göz xəstəlikləri ilə məşğul olub. Tez-tez rayonlara gedib, həkim-oftalmoloqlar üçün məruzələr oxuyub.

Yeri gəlmişkən, Zərifə xanım Əliyeva gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Həkim etikası məsələləri də onu həmişə düşündürmüşdür. Çoxsaylı məqalələri, çıxışları məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı isə cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə vermişdir.

Zərifə xanım 1954-cü ildə unudulmaz dahi şəxsiyyət Heydər Əliyevlə xoşbəxt bir ailənin təməlini qoyub və onlar birlikdə əsl ailə etalonu yaratmağa nail olublar.

İllər uzunu elmi axtarışlarını əzmlə davam etdirən Zərifə xanım 1960-cı ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi alıb.

Altmışıncı illərdə Zərifə xanım bir müddət Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. Göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparıb, yeni elmi tədqiqatlar üzərində çalışıb. Xüsusilə Qlaukoma xəstəliyinin öyrənilməsi ilə bağlı mühüm elmi nəticələr əldə edib. Sonra Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti olub. Eyni zamanda, ona qədər çox az tədqiq olunmuş bir mövzunu – görmə orqanının patologiyası məsələlərini araşdırıb. Beləcə, gözün peşə xəstəliyi problemləri ilə ömrü boyu məşğul olub. İnsanların zülmətə yolunu bağlayıb, onları işığa doğru yönəldib.

Görkəmli alim çoxillik elmi araşdırmalarının nəticəsi olaraq, kimya sənayesi işçilərinin göz xəstəliklərinin tədqiqini ümumiləşdirən, ciddi elmi nəticələr doğuran "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" adlı doktorluq dissertasiyasını 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda uğurla müdafiə edib. Dissertasiya işi ünlü alim-oftalmoloqların yüksək qiymətini alıb, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilib.

Onun təşəbbüsü ilə 1977-ci ildə Bakıda böyük uğurla Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü bəyənmiş və iki il sonra AEA-nın Fiziologiya İnstitutunda həmin laboratoriya təşkil edilmişdir. Laboratoriyanın tədqiqat bazası Bakı Məişət Kondisionerləri zavodu idi. Burada elmi tədqiqatlarla yanaşı, müalicə işləri də aparılırdı. Zərifə xanım özünün kəşf etdiyi görmə aparatı vasitəsilə kompleks diaqnostika və erkən cərrahi müdaxilə üsullarını uğurla tətbiq edirdi.



Zərifə xanımın kitabları onun tibb elminə verdiyi sanballı töhfələrdir. "Kəskin virus konyunktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası", digər əsərləri bu sıradandır.

Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə də xüsusi diqqət yetirmiş, bu mövzuya həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və başqa əsərləri ilə Azərbaycanda lakrimologiyanın banisinə çevrilmişdir. Tibb elminin nadir sahələrindən olan iridodiaqnostika və iridoterapiya problemlərinə həsr etdiyi "İridodiaqnostikanın əsasları" və "İridodiaqnostika" adlı monoqrafiyaları da qeyd etmək lazımdır. Fərəhli haldır ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitabları məhz akademik Zərifə Əliyeva yazmışdır. Alim müasir dövrdə də həkimlərin əl-əl gəzdirdiyi "Terapevtik oftalmologiya" əsərinin və "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasının da müəlliflərindən biridir.

Dərin zəkalı alim olan Zərifə xanım Əliyeva 1980-ci ildə Əməkdar elm xadimi fəxri adına, 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. O, Sovet İttifaqında belə yüksək mükafatı alan ilk qadın mütəxəssis idi. 1983-cü ildə görkəmli alim Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Zərifə xanım, həmçinin Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, "Вестник офталмологии» (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

Bütün bu elmi-pedaqoji və tibbi uğurları ilə yanaşı, Zərifə xanım zərif, həssas qadın, mehriban ömür-gün yoldaşı, qayğıkeş ana kimi də qürurla anılır. Vətənimiz üçün iki layiqli övlad böyüdüb tərbiyələndirib. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı olaraq dünyada şöhrət qazanmış İlham Əliyev həyat və fəaliyyətindəki möhtəşəm uğurlarına görə özünü ilk növbədə, atası Heydər Əliyevin və anası Zərifə xanım Əliyevanın ruhuna borclu sayır.

Ümummilli liderin həyatından bəhs edən "Heydər Əliyev: Tale yolları" kitabının müəllifi, rus yazıçı-publisisti Nikolay Zenkoviç öz əsərində Zərifə xanımın təvazökarlığından, mehribanlığından, digər yüksək keyfiyyətlərindən, mənəvi zənginliyindən də bəhs edir: "Mən Siyasi Büro üzvlərinin zövcələri barədə bioqrafik məlumatları diqqətlə araşdırmışam, müqayisə etmişəm. Hansı nəticəyə gəlmişəm? Aydın olub ki, onlar arasında ən savadlı qadın Siyasi Büro üzvü Heydər Əliyevin xanımı olub... Özü də təkcə savadlı yox, Zərifə xanım hərtərəfli bir şəxsiyyət idi. SSRİ siyasi rəhbərliyinin o biri üzvlərinin evdar qadın olan maraqsız arvadlarından fərqli olaraq, Heydər Əliyevin həyat yoldaşı dünyada tanınan bir insan idi."

Daha sonra müəllif qeyd edir ki, "yuxarılarda" əyləşən 229 nəfərin uşaqlarından ən böyük uğur qazananlar 3 nəfərdir. "Birinci yerdə Heydər Əliyevin oğlu İlham durur. O, Azərbaycan Respublikasının Prezidentidir. Siyasi Büronun o biri üzvlərinin övladlarından heç biri bu cür böyük uğura nail olmamışdır. Dünyanın aparıcı dövlətlərinin başçıları onu səmimi qəbul etmişlər, onunla yaxşı, işgüzar münasibətlər qurmuşlar." Bu fikirlər, eyni zamanda, Zərifə xanımın necə nümunəvi bir ana olduğunun, ailə ocağının və xalqın uğuru üçün necə övladlar tərbiyə etməsinin etirafıdır.

Qırx ildən artıq SSRİ Bəstəkarlar İttifaqına başçılıq etmiş Tixon Xrennikovun qeydləri də maraqlıdır: "Fundamental erudisiyası ilə seçilən parlaq şəxsiyyət Zərifə xanım heyrətamiz insan idi. Musiqini, ədəbiyyatı, xüsusilə poeziyanı peşəsi qədər sevib, dəyər verən kamil bir insan, şəxsiyyət idi."

O, ömrü boyu insanları qaranlıqdan işığa daşıyıb, xalqın, millətin sağlamlıq qayğıları ilə yaşayıb. Burada akademik İsa Həbibbəylinin Zərifə Əliyeva haqqında yazdığı oçerkə "İşığın elmi, elmin işığı" adını qoymasının, necə deyərlər, birə-bir yerinə düşdüyünü vurğulamaq lazımdır. AMEA-nın vitse-prezidenti Zərifə xanımın xidmətlərini xüsusi qeyd edib: "Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun həyat yolu hər bir Azərbaycan vətəndaşı, alimi və həkimi üçün mənəviyyat dərsi, kamillik məktəbidir".

Ünlü səhiyyə alimlərinin qənaətinə görə, Azərbaycan Tibb Universitetinin məzunu olan Zərifə xanım Əliyevanın XX əsrin ikinci yarısında dünya tibb elminə töhfələr vermiş alimlərin sırasında xüsusi yeri var. Bu yorulmaz alim, parlaq şəxsiyyət həmin sahədə bir çox innovasiyaların müəllifi olub və dünyanın etirafını qazanıb.

Bu gün Prezident İlham Əliyev xalqa xidmət amalını həm də ailə ənənəsi kimi davam etdirir. Azərbaycan rəhbərinin xalqın sağlamlığının mühafizəsinə yönəlmiş addımları, ümumiyyətlə yürütdüyü sosial siyasət şəfqət yaymaqla bağlı ailədən gələn humanitar missiyanın davamıdır. Məhz bu zəmini onda unudulmaz gözəl insan Zərifə xanım yaradıb. Onun gəlini, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva bu gün layiqli ardıcıl kimi saysız-hesabsız savab işləri ilə şöhrət qazanıb.



Keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin zabiti, uzun illər ulu öndərin şəxsi mühafizəsini təmin etmiş Aleksandr İvanov xatirələrində qeyd edir: "Hər kəsə qayğı göstərmək Zərifə xanımın əsas xasiyyəti idi. O heç zaman insanları statusuna görə fərqləndirməzdi. Heydər Əliyevi işə yola salandan sonra evdə çalışan xidmət personalı ilə bərabər oturub çay içərdi. Əksər Siyasi Büro üzvlərinin dincəldiyi Yaltada yalnız Heydər Əliyevin bağındakı xidmətçilər yeməkxanada deyil, evdə nahar edərdilər ki, bu da Zərifə xanımın təşəbbüsü idi. Onun diqqətini mən dönə-dönə öz üzərimdə də hiss etmişəm. Bir dəfə axşam növbə başa çatandan sonra Zərifə xanım məndən xahiş etdi ki, mətbəxə gəlim və mənə bir bağlama uzatdı. Özümü itirdim, amma o dedi: "Bunu həyat yoldaşına verərsən. Qadın hamilə olanda dəniz məhsulları yeməlidir, o zaman gələcək uşağın gözləri mavi olar". Mən çox təsirləndim. Sanki həmin söhbətin kəramətindən imiş kimi, ailəmdə, doğrudan da, mavi gözlü bir oğul övladı dünyaya gəldi. Zərifə xanım üçün hər kəs onun öz ailəsi kimi, öz doğmaları kimi idi"...

Təəssüf ki, Zərifə xanım dünyadan tez köçdü və Azərbaycanın dövlət müstəqilliyini, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəsini görmədi. Bünövrəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu Zəfər onun layiqli ardıcılı Prezident İlham Əliyevin böyük şəxsi xidmətlərinin nəticəsidir. Hər ikisi müasir Azərbaycanın tarixini yazmış dünya şöhrətli böyük siyasi xadimlərdir. Dahi şəxsiyyətlərin misilsiz xidmətlərini qeyd etməklə bərabər, Zərifə xanımın – sevgisi, zərifliyi, müdrikliyi ilə daim Heydər Əliyevin də, İlham Əliyevin də, nəticə etibarı ilə bütün xalqımızın da yoluna işıq saçmış Böyük Qadının ruhu qarşısında da baş əymək lazımdır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***